Xalq qəzeti.- 2022.- 14 iyul.- S. 7

***İşğalçı ölkənin Vətən müharibəsindən əvvəl davamlı olaraq təxribata cəhd göstərməsi həm də onun münaqişənin həlli ilə bağlı mövqeyində qeyri-səmimiliyini nümayiş etdirirdi. Bu isə o demək idi ki, Ermənistan münaqişənin sülh yolu ilə nizamlanmasında maraqlı deyil və bununla işğalçı dövlət olduğunu bir daha təsdiqləyir. Vətən müharibəsindən əvvəl Ermənistanın dövlət sərhədimizdə törətdiyi təxribatlar da qeyd edilən fikrin əyani sübutu idi. Belə ki, 2020-ci il iyulun 12-də işğalçı ölkənin silahlı qüvvələri Azərbaycanın Tovuz istiqamətində mövqelərinə artilleriya atəşi ilə zərbə endirməklə təxribat törətdi, dövlət sərhədimizi pozdu. Hər zaman olduğu kimi, Tovuz hadisələrində də Ermənistan tərəfi günahı Azərbaycan Ordusu üzərinə yıxmağa, beynəlxalq ictimaiyyəti çaşdırmağa cəhd göstərdi.***

# Ordumuz Tovuz döyüşlərində qüdrətini bir daha nümayiş etdirdi



Yeri gəlmişkən, həmin hadisələr vaxtı Ermənistan tərəfindən Azərbaycana qarşı yönəldilən iddialar heç bir məntiqə, düşüncəyə sığmırdı. Belə ki, guya hərbçilərimiz tərəfindən UAZ maşını ilə Ermənistan sərhədi pozularaq diversiya törətməyə cəhd edilib. Prezident İlham Əliyev isə həmin vaxt çıxışlarının birində dedi: “Sual olunur, hansı ölkənin ordusu hücumu iki zabit və əsgərlə UAZ maşını ilə təşkil edir? Bəlkə Ermənistan ordusu belə “müdrik” hərbi əməliyyatlar hazırlamaqla məşğuldur? Ancaq Azərbaycan Ordusu və dünyanın heç bir ordusu belə ağılsız addım atmaz. Yəni, bu cəfəng versiyanın Ermənistan tərəfindən təqdim edilməsinin əsas səbəbi günahı bizim üzərimizə yıxmaqdır, hər dəfə olduğu kimi. Ancaq bu dəfə buna heç kim inanmayıb. Hərbi mütəxəssis olmaq lazım deyil ki, bu cəfəng versiyaya insanlar inansın. Əsl vəziyyət ondan ibarət idi ki, bir daha demək istəyirəm, bizim hərbi postumuz artilleriya atəşi ilə vurulub və bu qəfil çirkin addım nəticəsində hərbçilərimiz həlak olublar...”.

Dövlətimizin başçısı erməni silahlı qüvvələrinin həmin təxribatından dərhal sonra Azərbaycan Silahlı Qüvvələrinə həlak olan hərbçilərimizin intiqamının alınması, onların qanının yerdə qalmaması üçün göstərişlər verdi, həmçinin müvafiq strukturlara beynəlxalq təşkilatların Ermənistanın bu diversiyası ilə əlaqədar dolğun məlumatlandırılmasını tapşırdı.

Lakin bütün cavab tədbirləri erməni faşistlərini Azərbaycana qarşı yeni təxribatlar törətməkdən çəkindirmədi. Belə ki, az sonra Azərbaycan–Ermənistan dövlət sərhədinin Qazax rayonu istiqamətində Ermənistanın kəşfiyyat-diversiya qrupu qoşunların təmas xəttini keçməyə cəhd göstərdi, bölmələrimizin sayıqlığı nəticəsində düşmənin təxribat cəhdinin qarşısı alındı və itkilər verərək geri çəkilməyə məcbur edildi.

Bu hadisə, eyni zamanda, Ermənistanın təxribatçı tərəf oduğunu bir daha sübuta yetirməklə yanaşı, Azərbaycan ordusunun hazırlıq səviyyəsini, peşəkarlığını da göstərdi.

Bütün bu təxribatlar Ermənistan rəhbərliyinin ikiüzlü və riyakar fəaliyyətinin məntiqi nəticəsi idi. Ermənistan bir tərəfdən beynəlxalq ictimaiyyətə müraciət edərək, iki ölkə qoşunlarının təmas xəttində atəşkəs rejiminin möhkəmləndirilməsi üçün kömək istəyir, digər tərəfdən də, hərbi təxribatlar törədərək Azərbaycan ərazisinə basqın etməyə, mövqelərimizi zəiflətməyə cəhd göstərir, mülki əhalini, kəndlərimizi atəşə tuturdu. Bu çirkin və məkrli siyasət, şübhəsiz ki, Ermənistanı uçuruma aparırdı. Təbii ki, bütün məsuliyyət də Ermənistan rəhbərliyinin üzərinə düşürdü.

Beləliklə, 2020-ci il sentyabrın 27-də Azərbaycanın işğalçı Ermənistana qarşı başladığı əks-hücum əməliyyatı ilə təcavüzkarın 30 il ərzində işğal altında saxladığı əzəli-əbədi torpaqlarımız azad olundu. Bu, ölkə Prezidenti, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı İlham Əliyevin qətiyyətli sərkərdə fəaliyyətinin, müdrik siyasətinin və Azərbaycan Ordusunun güc-qüdrətinin, döyüş ruhunun məntiqi nəticəsi idi. Bu qələbə, eyni zamanda, bütün dünyaya xalqımızın torpaq-yurd sevgisini, haqq-ədalət uğrunda mübarizə əzmini, yumruq kimi bir olmağını, milli birliyini nümayiş etdirdi, həmçinin şəhidlərimizin, Xocalı qurbanlarının, Gəncə, Bərdə soyqırımları zamanı həlak olan günahsız insanların qanlarının yerdə qalmadığını göstərdi.

***Şair RAMALDANOV,***
***ehtiyatda olan polkovnik***